İPƏK YOLU, No.3, 2025, səh.109-117
https://doi.org/10.30546/SI.2025.3.103.321

# REGİONLARDA MÜƏSSİSƏLƏRİN RƏQABƏT QABİLİYYƏTİNİN ARTIRILMASINDA İNNOVASİYA STRATEGİYALARI

**Rifat Həsənov**

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
e-mail: hasrifat@gmail.com

**Xülasə.** Məqalədə Azərbaycan regionlarında müəssisələrin rəqabət qabiliyyətinin artırılmasında innovasiya strategiyalarının rolu araşdırılmışdır. Qeyri-neft sektorunun inkişafının prioritet olduğu Azərbaycan reallığında region müəssisələrinin innovativ fəaliyyətləri iqtisadi şaxələndirmə, dayanıqlı inkişaf və beynəlxalq bazarlarda rəqabət üstünlüyünün təminatı baxımından mühüm əhəmiyyət kəsb edir. Xüsusilə Naxçıvan Muxtar Respublikasında innovasiya yönümlü təşəbbüslər - Sənaye Parkı, startap ekosistemi, innovasiya mərkəzləri və alternativ enerji layihələri - regionun iqtisadi dinamizmini artırmışdır. Məqalədə həmçinin dövlətin innovasiya prosesində rolunun strateji əhəmiyyəti, region klasterlərinin və universitet-sənaye əməkdaşlığının təşviqi vurğulanmışdır.

**Açar sözlər:** İnnovasiya strategiyaları, region müəssisələri, innovasiya, rəqabət qabiliyyəti, dayanıqlı inkişaf, Naxçıvan Muxtar Respublikası.

## INNOVATION STRATEGIES IN ENHANCING THE COMPETITIVENESS OF REGIONAL ENTERPRISES

**Rifat Hasanov**
*Nakhchivan State University, Nakhchivan, Azerbaijan*

**Abstract.** The paper examines the role of innovation strategies in enhancing the competitiveness of enterprises in the regions of Azerbaijan. In the context of prioritizing the development of the non-oil sector, the innovative activities of regional enterprises are of crucial importance for economic diversification, sustainable development and ensuring competitive advantages in international markets. In particular, in the Nakhchivan Autonomous Republic, innovation-oriented initiatives - Industrial Park, startup ecosystem, innovation centers and alternative energy projects - have increased the region’s economic dynamism. The article also highlights the strategic role of the state in the innovation process and the promotion of regional clusters and university-industry collaboration.
**Keywords:** Innovation strategies, regional enterprises, innovation, competitiveness, sustainable development, Nakhchivan Autonomous Republic.

## СТРАТЕГИИ ИННОВАЦИЙ В ПОВЫШЕНИИ КОНКУРЕНТОСПО-СОБНОСТИ ПРЕДПРИЯТИЙ РЕГИОНОВ

**Рифат Гасанов**
*Нахичеванский Государственный Университет, Нахичевань, Азербайджан*

**Резюме.** В статье рассматривается роль инновационных стратегий в повышении конкурентоспособности предприятий регионов Азербайджана. В условиях приоритета развития не сырьевого сектора инновационная деятельность региональных предприятий имеет важное значение для диверсификации экономики, устойчивого развития и обеспечения конкурентных преимуществ на международных рынках. В частности, в Нахичеванской Автономной Республике инновационные инициативы – Индустриальный парк, стартап-экосистема, инновационные центры и проекты альтернативной энергетики - способствовали увеличению экономической динамики региона. В статье также подчеркивается стратегическая роль государства в инновационном процессе, а также содействие формированию региональных кластеров и сотрудничеству университет-промышленность.
**Ключевые слова:** Инновационные стратегии, региональные предприятия, инновации, конкурентоспособность, устойчивое развитие, Нахичеванская Автономная Республика.

## 1. Giriş

Azərbaycan iqtisadiyyatı uzun müddət neft və qaz sektoruna əsaslansa da, son onillikdə regionlarda qeyri-neft sektorunun inkişafı dövlət siyasətinin mərkəzi istiqamətinə çevrilmişdir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində də rəqabətqabiliyyətli iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi və regionlarda yeni istehsal zəncirlərinin yaradılması əsas hədəflər kimi müəyyən edilmişdir.

Qlobal trendlər - irəliləyiş yaradan texnologiyaların meydana çıxması, rəqəmsallaşma və məhsulların həyat dövrünün sürətlənməsi - əksər sahələrdə radikal dəyişikliklərə səbəb olur. Dəyər yaradılması zəncirləri dəyişir, rentabellik zonaları yerini dəyişir, yeni oyunçular peyda olur - bu isə sahələrdə qüvvələr nisbətini kökündən dəyişir və yeni ideya və işləmələrin tətbiqini əhəmiyyətli dərəcədə sürətləndirir.

Bir çox sektorlarda innovativ şirkətlərin payı artıq 10-20%-ə çatır. Lazımi istehsal miqyasına malik sahələr irəliləyiş yaradan texnologiyaların tətbiqində lokomotiv ola bilərlər. Yeni imkan və təhdidlərin yaranma tezliyi, həmçinin onların bazarlara daxil olma sürəti artmaqda davam edir. Hər il yeni texnologiyalar həyatımıza daha sürətlə daxil olur və şirkətlərin onları tətbiq etmək üçün vaxtı getdikcə azalır.

Nəticədə, ənənəvi sahə strukturu dəyişir: bir çox sektorlarda innovativ şirkətlərin payı artıq 10-20%-ə çatıb və yaxın illərdə sürətlə artacaq. ABŞ-ın ən iri 500 korporasiyasının ümumi mənfəətində texnoloji şirkətlərin payı 1997-ci ildə təqribən 9% idisə, 2024-ci ildə artıq 25 %-ə yüksəlmişdi. Bu cür dəyişikliklər bütün dünyada baş verir, buna görə də innovasiyanın tam spektrindən istifadə liderliyin əsas şərti və davamlı rəqabət üstünlüyünün təminatı olur.

Regionlarda innovasiya aktivliyinin artmasının digər müsbət nəticələri sırasında unikal regional brendin formalaşmasını (məsələn, ABŞ-dakı “Silikon vadisi” innovasiyaların simvoluna çevrilmişdir və bütün dünyadan tədqiqatçıların diqqətini cəlb edir), regionun ölkədaxili və beynəlxalq müsabiqələrdə, qrantlarda, reytinqlərdə (məsələn, beynəlxalq rəqabətqabiliyyətlilik reytinqində) iştirakını, eləcə də yeni bazarların fəth edilməsi məqsədilə regionun ixrac potensialının inkişafını göstərmək olar.

Azərbaycan regionlarında innovasiya baxımından perspektivli sahələr mövcuddur. İnnovasiyalar çox vaxt iri investisiyalar və geniş satış bazarları tələb edir. Lazımi istehsal miqyasına malik sahələr (məsələn, aqrar sənayesi, energetika, metallurgiya) irəliləyiş yaradan texnologiyaların tətbiqində lokomotivə və milli innovasiya mərkəzlərinə çevrilə bilərlər. Regionlarda fəaliyyət göstərən Azərbaycan şirkətləri müəyyən perspektivli sektorlarda innovasiya yarada və onu miqyaslandıra bilərlər.

Azərbaycanın müxtəlif iqtisadi-coğrafi bölgələri innovasiya potensialına görə fərqlənir:

- Qarabağ və Şərqi Zəngəzur - kənd təsərrüfatı və yaşıl enerji sahələrində geniş innovasiya imkanlarına malikdir.
- Gəncə-Qazax bölgəsi - metallurgiya və kənd təsərrüfatı məhsullarının emalı üzrə potensiala sahibdir.

- Şəki-Zaqatala bölgəsi - meyvəçilik, fındıqçılıq və ekoturizm sahələrində innovativ həllərə açıqdır.
- Lənkəran-Astara bölgəsi - çayçılıq, sitrusçuluq və subtropik məhsullar üzrə modern texnologiyaların tətbiqini tələb edir.
- Naxçıvan Muxtar Respublikası - coğrafi təcrid səbəbindən unikal iqtisadi modelə sahibdir. Burada ərzaq təhlükəsizliyi, alternativ enerji mənbələri (günəş və külək), biotexnologiya və tibbi xidmətlərdə innovativ yanaşmalar mühüm əhəmiyyət daşıyır. Naxçıvanda yerli resurslardan maksimal istifadə etməklə ərzaq məhsullarının daxili təminatı innovasiya əsaslı strategiyaların uğurlu nümunəsidir.

Region müəssisələri, xüsusilə sənaye və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərənlər, məhsul və proses innovasiyalarına üstünlük verirlər. Məsələn, Azərbaycanın Naxçıvan, Şirvan və Gəncə bölgələrində fəaliyyət göstərən tekstil və ərzaq istehsalı müəssisələrində Avropa standartlarına uyğun avadanlıq və rəqəmsal idarəetmə sistemləri tətbiq olunmuşdur. Bu, həm istehsal keyfiyyətini artırır, həm də xərcləri optimallaşdırır.

Bundan başqa, region müəssisələri informasiya texnologiyalarının tətbiqi ilə bazar analizlərini, müştəri davranışını və logistika proseslərini daha səmərəli idarə etməyə başlamışlar.

Davamlı inkişaf prinsipləri region müəssisələrinin fəaliyyətində əhəmiyyətli yer tutur. Bu, yalnız ekoloji aspektləri əhatə etmir, eyni zamanda sosial və iqtisadi dayanıqlığı da təmin edir. Qəbələ və Lənkəran bölgələrində kənd təsərrüfatı müəssisələri suvarma sistemlərini optimallaşdıraraq su sərfiyyatını 30%-ə qədər azaldıb.

Region müəssisələri üçün innovasiya və davamlı inkişaf sahəsində yeni ideyalar bir neçə istiqamətdə cəmləşir: Günəş və külək enerjisinin istifadəsi, tullantıların təkrar emalı, ekoloji sertifikatlı məhsulların istehsalı və müştəri yönümlü innovasiya - məhsul və xidmətlərin fərdiləşdirilməsi, istehlakçı rəylərinə əsaslanan yeniliklərin tətbiqi. Bu həllər region müəssisələrinin rəqabət üstünlüyünü artırmaqla yanaşı, onların ekoloji və sosial məsuliyyətlərini də gücləndirir.

Region müəssisələrinin innovasiya və davamlı inkişaf sahəsində atdığı addımlar, onların yalnız iqtisadi baxımdan dayanıqlılığını deyil, həm də sosial və ekoloji təsirini artırır. Yeni ideyalar və həllər vasitəsilə region müəssisələri həm daxili, həm də beynəlxalq bazarlarda rəqabət qabiliyyətlərini yüksəldirlər. Bu prosesin davamlı olması üçün dövlət dəstəyi, yerli idarəetmə strukturlarının təşviqi və müəssisələrarası təcrübə mübadiləsi mühüm əhəmiyyət daşıyır. Gələcəkdə region müəssisələrinin innovasiya yönümlü strategiyalarının genişlənməsi və davamlı inkişaf prinsiplərinə uyğun fəaliyyəti iqtisadi və sosial dayanıqlığın əsas təminatçısı olacaqdır.

Məqalənin məqsədi region müəssisələrinin rəqabət qabiliyyətinin artırılmasında innovasiya strategiyalarının rolunu Azərbaycan reallıqları kontekstində araşdırmaqdır.

Əgər Azərbaycan "post-neft" dövründə davamlı iqtisadi artımı təmin etmək istəyirsə, innovasiya və rəqabət qabiliyyəti məsələləri milli və regional inkişaf strategiyalarının əsas

sütunlarına çevrilməlidir. Bu, həm ölkənin qlobal bazarlarda mövqeyini möhkəmləndirəcək, həm də regionlarda sosial-iqtisadi balanslı inkişafı təmin edəcəkdir.

Naxçıvan Muxtar Respublikasının region müəssisələri, innovasiya və davamlı inkişaf sahəsində həyata keçirdikləri tədbirlər ilə iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Dövlətin dəstəyi və təşviq mexanizmləri, bu müəssisələrin fəaliyyətlərinin inkişafına müsbət təsir göstərmişdir. Gələcəkdə bu istiqamətdəki fəaliyyətlərin daha da genişləndirilməsi və inkişaf etdirilməsi vacibdir.

## 2. İnnovasiya və Regional Rəqabət Qabiliyyəti: Nəzəri Çərçivə

"İnnovasiya" termini ilk dəfə XX əsrin əvvəllərində avstriyalı iqtisadçı Y. Şumpeter tərəfindən gətirilmişdir. Bu anlayışın ilkin izahı kifayət qədər geniş idi və mənfəətin artırılması üçün istifadə olunan hər hansı sahibkarlıq vasitələrini əhatə edirdi.

Daha sonralar Y. Şumpeter bu anlayışı dəqiqləşdirərək yeni bazarların, malların, xidmətlərin və ya istehsal vasitələrinin meydana gəlməsi ilə nəticələnən dəyişikliklərə şamil etdi[1] [9]. XX əsr ərzində bu termin sahibkarlıq təcrübəsinin inkişafı ilə birlikdə yeni çalarlar qazandı.

Elmdə mövcud olan yanaşmaları ümumiləşdirərək demək olar ki, bu gün "innovasiya" anlayışının tədqiqində üç əsas yanaşma mövcuddur: proses yanaşması, sistem yanaşması və nəticə yanaşması [7].

Şumpeter nəzəriyyəsi Azərbaycanın innovasiya və iqtisadi inkişaf strategiyasına tətbiq olunmaqla qeyri-neft sektorunun rəqabət qabiliyyətini artırmaq, texnoloji modernləşməni sürətləndirmək və iqtisadi şaxələndirməni təmin etmək üçün effektiv vasitədir. Təşəbbüskar yanaşma və yaradıcı dağıdılma prinsipləri ilə iqtisadi siyasət formalaşdırmaq Azərbaycanın uzunmüddətli dayanıqlı inkişafına mühüm töhfə verə bilər.

İnnovasiyalar region iqtisadiyyatında yeni sahələrin yaranmasına və ənənəvi sektorların transformasiyasına şərait yaradır.

İnnovasiya anlayışı müasir iqtisadiyyatın mərkəzi kateqoriyalarından biridir və yalnız texnoloji yeniliklər ilə məhdudlaşmır. İnnovasiya, iqtisadiyyatın bütün sferalarında - idarəetmədə, təşkilati modellərdə, marketinq yanaşmalarında, insan resurslarının idarə edilməsində və xidmətlərin göstərilməsində yeni həllərin tətbiqi ilə bağlıdır.

Oslo Manual-a görə, innovasiya, məhsul, proses, marketinq və təşkilati innovasiyaları əhatə edir və hər biri müəssisələrin rəqabət qabiliyyətini artırmaq üçün müxtəlif vasitələr təqdim edir[2] [2].

[1] **Yozef Şumpeter (Joseph Alois Schumpeter, 1883-1950)** - Avstriyalı iqtisadçı, sosioloq və siyasətşünasdır. O, iqtisadi nəzəriyyədə innovasiya və müəssisəçilik sahəsində nüfuzlü tədqiqatçıdır.
[2] Oslo rəhbərliyi - innovasiya fəaliyyəti haqqında məlumatların toplanması və şərh edilməsi üzrə beynəlxalq səviyyədə tanınmış metodoloji vəsaitdir.

Azərbaycan reallığında bu məqam xüsusilə aktualdır. Çünki ölkənin iqtisadi inkişafı uzun illər neft-qaz sektoru üzərində qurulsa da, son illərdə qeyri-neft sahələrinin inkişafı, rəqəmsal transformasiya və kənd təsərrüfatında modernizasiya innovasiyanın müxtəlif formalarının tətbiqini zəruri edir. Burada həmçinin regionlarda fəaliyyət göstərən müəssisələrin spesifik ehtiyacları ön plana çıxır: kiçik bazar həcmi, maliyyə resurslarının məhdudluğu, texnologiya transferində çətinliklər və ixtisaslı kadr çatışmazlığı.

Maykl Porter-in "rəqabət üstünlüyü" nəzəriyyəsinə əsasən, ölkələrin və regionların iqtisadi inkişafının təməlində sənaye klasterlərinin formalaşması dayanır. Klasterlər, bir-biri ilə bağlı fəaliyyət göstərən müəssisələrin, universitetlərin, tədqiqat institutlarının və dövlət qurumlarının birgə əməkdaşlığı nəticəsində yaranır. Bu əməkdaşlıq bilik və texnologiyanın sürətli dövriyyəsini təmin edir, innovasiya proseslərinin intensivləşməsinə və nəticədə davamlı rəqabət üstünlüyünün formalaşmasına şərait yaradır[3]. Qloballaşma və rəqabətin dərinləşdiyi müasir dövrdə milli iqtisadiyyatların dayanıqlı inkişafı üçün strateji yanaşmaların tətbiqi zəruridir. Bu baxımdan Harvard Universitetinin professoru Maykl Porterin rəqabət nəzəriyyələri (Porterin "beş qüvvə" modeli, "rəqabət üstünlüyü" konsepsiyası, "brilyant" modeli) ölkələrin iqtisadi siyasətində mühüm nəzəri-metodoloji baza yaradır [3]. Azərbaycan iqtisadiyyatının transformasiya mərhələsində bu nəzəriyyələrin tətbiqi həm regional inkişaf, həm də beynəlxalq bazarlarda mövqelərin gücləndirilməsi baxımından aktualdır.

Porterin nəzəriyyələrinin Azərbaycan iqtisadiyyatına tətbiqi göstərir ki, ölkənin mövcud resurs üstünlükləri uzunmüddətli dayanıqlı rəqabət qabiliyyətini təmin etmək üçün kifayət deyil. Əsas vəzifə bu üstünlüklərin innovasiya, klaster yanaşması və beynəlxalq bazar strategiyaları ilə birləşdirilməsidir.

Azərbaycan regionlarında klaster yanaşması hələ ilkin mərhələdə olsa da, kənd təsərrüfatı (xüsusilə pambıqçılıq, üzümçülük, meyvəçilik), informasiya texnologiyaları və xidmət sektoru üzrə lokal təşəbbüslər müşahidə olunur. Burada dövlətin təşviqedici siyasətləri - güzəştli kreditlər, texnoparkların yaradılması və startap layihələrinin dəstəklənməsi xüsusi rol oynayır.

## 3. Dövlətin innovasiyaların inkişafında fəal rolu və Azərbaycan regionlarının dayanıqlı inkişaf siyasəti

Əvvəllər dövlətin innovasiya prosesində rolu, əsasən, elə bir mühitin yaradılmasından ibarət idi ki, bazar iştirakçıları orada effektiv şəkildə innovasiyalar işləyib hazırlaya və tətbiq edə bilsinlər. Bundan başqa, dövlət fundamental elmi və yeni texnologiyaların inkişafını maliyyələşdirməklə kifayətlənirdi.

Müasir dünyada isə dəyişən amillərin çoxluğu, sahələr arasında yüksək inteqrasiya və yeniliklərin sürətlə yayılması səbəbindən dövlətin rolu daha da əhəmiyyətli olmuşdur [5].

[3]Maykl Porter (Michael Eugene Porter, d. 1947) - ABŞ-lı iqtisadçı, Harvard Biznes Məktəbinin professoru, strateji idarəetmə və rəqabətqabiliyyətlilik nəzəriyyələri sahəsində dünyanın ən nüfuzlu alimlərindən biridir.

Dövlətin innovasiya prosesində fəal mövqeyi ayrı-ayrı sahələrin inkişaf tempini xeyli sürətləndirə bilər. Ölkənin innovativ inkişaf siyasətini həyata keçirərkən, o cümlədən sahələrin inkişaf strategiyasını işləyib hazırlayaraq icra edən dövlət yalnız strateji əhəmiyyət daşıyan perspektivli layihələri (məsələn, müdafiə sənayesi və fundamental elmlər sahəsində) maliyyələşdirməklə kifayətlənmir, həm də bilavasitə bu sahələrin necə inkişaf etməsinə təsir göstərir [4].

Dövlət ən perspektivli sahələri və bazar paylarını müəyyənləşdirərək həmin istiqamətlərdə biznesə geniş spektrli xidmət dəstəyi təqdim edir. Bu dəstəyə texnoloji brokerlik fəaliyyəti, innovativ şirkətlərin ixrac fəaliyyətinə kömək və digər təşviq mexanizmləri daxildir.

Eyni zamanda, dövlət müxtəlif sahələr arasında əməkdaşlığı stimullaşdırır, maraqlı tərəfləri əlaqələndirir və sinerji imkanlarını araşdırmaq üçün bir araya gətirir. Bu məqsədlə müxtəlif proqramların yaradılmasına, eləcə də iri biznes, elm müəssisələri və startaplar arasında dialoq platformalarının təşkili vasitəsilə yeni ideyaların axtarışı və iri miqyaslı tapşırıqlar üzərində birgə işin təşviqinə şərait yaradır.

Nəhayət, dövlət innovasiyaların inkişafına maneə olan amilləri (qanunvericilik, infrastruktur və s.) müəyyənləşdirir və onların aradan qaldırılması istiqamətində fəal fəaliyyət göstərir.

Başqa sözlə, dövlət, ölkədə innovasiyaların inkişafı üçün vacib olan beş əsas uğur faktorunun - innovasiyalara tələbat, infrastruktur, maliyyələşmə, kompetensiyalar və innovasiya mədəniyyətinin - hər birinin formalaşdırılmasında mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi xəritəsində xüsusi yer tutur. Onun coğrafi təcridliyi, həm çətinliklər, həm də fürsətlər yaradır. Xarici bazarlara birbaşa çıxışın məhdudluğu regionun öz-özünü təmin etməsini vacib edir. Bu isə kənd təsərrüfatı məhsullarının ekoloji təmiz metodlarla istehsalı, alternativ enerji sahələrinin inkişafı və yerli istehsal müəssisələrinin gücləndirilməsi ilə mümkün olur [1].

Naxçıvanda innovasiya potensialının inkişafı üçün aşağıdakı sahələr ön plana çıxır:

- Alternativ enerji layihələri - günəş panelləri və külək enerjisi ilə bağlı pilot layihələr.
- Kənd təsərrüfatında texnoloji yeniliklər - istixana təsərrüfatlarında rəqəmsal monitorinq sistemlərinin tətbiqi.
- Səhiyyə və biotexnologiya - təbii mineral sular və tibbi turizmin innovativ yanaşmalarla inkişafı.
- Logistika və rəqəmsal xidmətlər - regionun coğrafi məhdudiyyətlərini kompensasiya etmək üçün rəqəmsal iqtisadiyyatın gücləndirilməsi.

Azərbaycan dövləti, Naxçıvanın region müəssisələrinin innovasiya və davamlı inkişaf sahəsində fəaliyyətlərini dəstəkləmək məqsədilə bir sıra təşviq mexanizmləri tətbiq etmişdir:

- Vergi və gömrük güzəştləri: Naxçıvan Sənaye Parkında fəaliyyət göstərən müəssisələr, vergi və gömrük güzəştlərindən yararlanaraq istehsal xərclərini azaldır və rəqabət qabiliyyətlərini artırırlar.

- İnvestisiya təşviqi: Dövlət, Naxçıvanın region müəssisələrinə investisiya təşviqi mexanizmləri tətbiq edərək yeni iş yerlərinin yaradılmasını və iqtisadiyyatın şaxələndirilməsini dəstəkləyir.

Beləliklə, innovasiya və regional rəqabət qabiliyyəti bir-birindən ayrılmaz anlayışlardır. Azərbaycan reallığında regionların rəqabət üstünlüyü yalnız təbii resurslara deyil, həm də innovasiya yönümlü iqtisadi modellərin tətbiqinə bağlıdır. Klaster yanaşması, universitet-sənaye əməkdaşlığının gücləndirilməsi, startapların dəstəklənməsi və kadr potensialının artırılması bu prosesin əsas istiqamətləridir. Xüsusən Naxçıvan nümunəsi göstərir ki, coğrafi məhdudiyyətlər belə innovasiya vasitəsilə iqtisadi üstünlüyə çevrilə bilər.

## 4. Regional müəssisələrin innovativ inkişafında problemlər və onların həlli yolları

Regional müəssisələrin innovativ inkişafı qarşısında dayanan problemlər çoxşaxəlidir:

- Məhdud kapital resursları. Regionlarda fəaliyyət göstərən müəssisələr tez-tez maliyyə resurslarına çıxışda çətinliklərlə qarşılaşır, bank kreditləri yüksək faiz dərəcələri ilə təqdim edilir;
- Texnologiya transferinin zəifliyi. Universitet-sənaye əməkdaşlığının zəif olması, texnopark və innovasiya mərkəzlərinin regionlarda məhdud fəaliyyəti müasir texnologiyaların tətbiqini ləngidir;
- İxtisaslı kadr çatışmazlığı. İqtisadiyyatın modernləşməsi üçün tələb olunan mühəndis, texnoloq və İT mütəxəssislərinin çatışmazlığı regionlarda daha kəskin hiss olunur;
- Bazarın kiçikliyi və coğrafi təcrid. Ənənəvi olaraq regionlarda bazar tələbi məhdud olduğundan müəssisələr miqyas effektindən yararlana bilmir. Bu isə istehsal xərclərinin yüksək, məhsulun isə rəqabət qabiliyyətinin aşağı olmasına səbəb olur [1; 6].

İnnovasiyalardan istifadə edərək regionun rəqabətqabiliyyətliliyini yüksəltməyin uğurlu nümunəsi kimi Naxçıvanı göstərmək olar. Burada texnoparklar (məsələn - NDU) sürətlə inkişaf edir, İT-startaplar üçün şərait yaradılır, elmi və texnoloji dəstək proqramları həyata keçirilir. Bu isə həm investorları, həm də mütəxəssisləri cəlb edir, regionu Azərbaycanın liderlərindən birinə çevirir.

Beləliklə, innovasiyaların regionun rəqabətqabiliyyətliliyinin təmin olunmasında rolu çox böyükdür. Onlar iqtisadi və sosial inkişafın hərəkətverici qüvvəsidir, regionun müasir çağırışlara uyğunlaşmasına və lider mövqelərə yüksəlməsinə imkan yaradır. Lakin innovasiyaların uğurla tətbiqi üçün dövlətin, biznesin və təhsil müəssisələrinin dəstəyi vacibdir.

Naxçıvan Muxtar Respublikası (NMR), Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və dayanıqlı inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atmışdır. Son illərdə NMR-də region müəssisələrinin innovasiya fəaliyyətləri və davamlı inkişaf prinsiplərinin tətbiqi sahəsində bir sıra təşəbbüslər həyata keçirilmişdir.

Naxçıvanın müxtəlif regionlarında fəaliyyət göstərən müəssisələr, innovasiya fəaliyyətlərini artırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirmişlər:

1. **Naxçıvan Sənaye Parkı**: 310 hektar sahəni əhatə edən bu sənaye parkı, region iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Müasir infrastrukturla təchiz olunmuş park, vergi və gömrük güzəştləri təklif edərək investisiyaların cəlb edilməsini və yeni iş yerlərinin yaradılmasını dəstəkləyir. Bu təşəbbüs, həmçinin kənd təsərrüfatı ilə sənayenin inteqrasiyasını gücləndirir və ixrac potensialını artırır.

2. **Gənclərin təşəbbüskarlığının dəstəklənməsi**: Naxçıvan Dövlət Universiteti, 2023-cü ildən etibarən tələbələr arasında startap mədəniyyətini təşviq etmək məqsədilə müxtəlif təşəbbüslər həyata keçirmişdir. Bu təşəbbüslər arasında təqdimatlar, bootcamp-lar və seminarlar təşkil edilərək, tələbələrə biznes ideyalarının inkişaf etdirilməsi, bazar araşdırmaları aparılması və biznes planların hazırlanması sahəsində bacarıqlar qazandırılmışdır.

Naxçıvanın region müəssisələri, davamlı inkişaf prinsiplərini tətbiq edərək ətraf mühitin qorunması və sosial məsuliyyət sahəsində fəaliyyətlərini genişləndirmişlər:

- **Suvarma sistemlərinin təkmilləşdirilməsi**: Naxçıvanın kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən müəssisələr, suvarma sistemlərini təkmilləşdirərək su sərfiyyatını azaltmış və məhsul verimliliyini artırmışdır. Bu təşəbbüs, həmçinin ətraf mühitin qorunmasına və resursların səmərəli istifadəsinə xidmət edir.
- **Tullantıların təkrar emalı və enerjinin səmərəli istifadəsi**: Naxçıvanın sənaye müəssisələri, tullantıların təkrar emalı və enerjinin səmərəli istifadəsi sahəsində layihələr həyata keçirmişlər. Bu layihələr, ətraf mühitin qorunmasına və iqtisadiyyatın dayanıqlılığının artırılmasına yönəlmişdir.

Naxçıvanın region müəssisələri, yeni ideyaların və həllərin tətbiqi ilə fəaliyyətlərini inkişaf etdirmişlər:

- **Startap ekosisteminin inkişafı**: Naxçıvan Muxtar Respublikasının region müəssisələri, fəaliyyətlərinin səmərəliliyini artırmaq və iqtisadi təsirini genişləndirmək məqsədilə yeni ideyaların və həllərin tətbiqinə xüsusi önəm vermişlər. Bu çərçivədə, Naxçıvan Dövlət Universiteti startap ekosisteminin inkişafı istiqamətində sistemli təşəbbüslər həyata keçirmişdir. Təşəbbüslər arasında tələbələrə biznes ideyalarının formalaşdırılması, bazar araşdırmalarının aparılması və biznes planlarının hazırlanması üzrə praktiki təlimlərin təşkili mühüm yer tutur. Paralel olaraq, Naxçıvan Muxtar Respublikası innovasiya mərkəzlərinin yaradılması istiqamətində strateji addımlar atmışdır. Sözügedən mərkəzlər sahibkarlara innovativ həllərin tətbiqi, texnoloji yeniliklərin mənimsənilməsi və yeni biznes ideyalarının inkişaf etdirilməsi sahəsində dəstək göstərir, regionun iqtisadi dinamizminin gücləndirilməsinə töhfə verir.
- **İnnovasiya mərkəzlərinin yaradılması**: Naxçıvan Muxtar Respublikası, innovasiya mərkəzlərinin yaradılması istiqamətində addımlar atmışdır. Bu mərkəzlər, sahibkarlara innovativ həllərin tətbiqi və yeni biznes ideyalarının inkişaf etdirilməsi sahəsində dəstək göstərir.

İnnovasiyalar regionun dayanıqlı inkişafının və rəqabətqabiliyyətliliyinin təmin olunmasında açar rol oynayır. İqtisadi, sosial və ekoloji inkişafı hədəfləyən kompleks innovasiya strategiyasının hazırlanması və həyata keçirilməsi regionların qloballaşma çağırışlarına uğurla uyğunlaşmasına və milli, həmçinin beynəlxalq səviyyədə lider mövqelərə çıxmasına şərait yaradacaqdır. Bu məqsədlərə nail olmaq üçün dövlət, biznes və elmi ictimaiyyətin fəal əməkdaşlığı, həmçinin innovasiyaların tətbiqi üçün əlverişli şəraitin yaradılması - infrastrukturun inkişafı, maliyyə dəstəyi və ixtisaslı kadrların hazırlanması vacibdir.

**Nəticə.** Azərbaycan regionlarının iqtisadi inkişafında innovasiya strategiyaları müstəsna rol oynayır. İnnovativ yanaşmaların tətbiqi region müəssisələrinin rəqabət qabiliyyətini artırmaqla yanaşı, iqtisadi şaxələndirməni və dayanıqlı inkişafı təmin edir. Naxçıvan nümunəsi göstərir ki, coğrafi təcrid və bazar məhdudiyyətləri belə innovasiya vasitəsilə iqtisadi üstünlüyə çevrilə bilər. Dövlət dəstəyi, universitet-sənaye əməkdaşlığı və startap ekosistemlərinin inkişafı regionların qlobal bazarlara inteqrasiyası və milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması üçün strateji əhəmiyyət daşıyır. Gələcəkdə region müəssisələrinin innovasiya və davamlı inkişaf sahəsində fəaliyyətlərinin genişləndirilməsi, kompleks innovasiya strategiyalarının hazırlanması və tətbiqi Azərbaycan iqtisadiyyatının dayanıqlı artımını təmin edəcək əsas amil olacaqdır.

## Ədəbiyyat


1. Həsənli A. (2025), Sənaye 4.0 kontekstində Naxçıvanın sənaye parklarının inkişafı. İpək Yolu, No.2, 39-45.
2. Paredes M., Damásio B., Mendonca S. (2025), Accounting for Oslo Manual: Reflecting on the past and setting the stage for future research. Foresight and STI Governance, Vol.19, No.1, 65-79. https://doi.org/10.17323/fstig.2025.24058
3. Porter M. (1990), The Competitive Advantage of Nations. Harvard Business Review.
4. Аким М.Э., Варнавина В.А., Гавенко Е.А. (2023), Устойчивое Развитие в Неустойчивом Мире: Объединяя Усилия Регионов, Городов и Компаний. Москва, 161.
5. Борщевский Г.А. (2024), Управление Государственными Программами и Проектами. Москва: Юрайт, 300.
6. Сухарев О.С. (2014), Региональная экономическая политика. Институты, структурно-организационные изменения, реиндустриализация. Москва: Ленанд, 144.
7. Угрюмовой А.А., Савельевой М.В., Ерохиной Е.В. (2023), Маркетинг Территорий. Москва: Юрайт, 452.
8. Фетисов Г.Г., Орешин В.П. (2013), Региональная Экономика и Управление. Москва: Инфра, 416.
9. Шумпетер Й. (1982), Теория Экономического Развития. Москва: Прогресс, 480.